# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Manatın sabitliyi hansı faktorlardan asılıdır?




8

## Regionda aviasiya sahəsində kadr potensialının formalaşmasına töhfə



2


SƏS

№ 028 (7438)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

10 aprel 2026-cı il.
Qiyməti 1 manat


# Kövrək atəşkəs, yoxsa aktiv müharibə?



*Dünyanın Hörmüz, İsrailin Hizbullah problemi*

3

## Hansı hallarda şəxsi əmlakı itirə bilərik?



4

## Valideynlərin bilmədiyi risk: körpələrdə qida allergiyası



6

## Ölümüzə niyə ehsan vermirik?



5

## Tramp İranda nə axtarır: NEFT, yoxsa molla?



5

## SOS: Dünya BÖYÜK ACLIĞA doğru gedir



8





# Regionda aviasiya sahəsində kadr potensialının formalaşmasına töhfə






***Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi, informasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiya istiqamətində böyük nailiyyətlər əldə edib. Ölkənin iqtisadi inkişafının baza sütunlarından biri olan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bütün mövcud problemləri, insanları narahat edən sosial məsələləri əhatə edərək, ölkəmizin dinamik inkişafını təmin etməklə yanaşı, bölgələrin potensialının artmasına və əhalinin rifahının yüksəlməsinə geniş şərait yaradıb. Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfərləri çərçivəsində bir sıra sosial və iqtisadi xarakterli obyektlərin - xəstəxanaların, yeni yolların, mədəniyyət, xidmət mərkəzlərinin, yeni iş yerlərinin və s. istifadəyə verilməsi ölkəmizdə uğurlu siyasətin məntiqi nəticəsidir.***

Beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verən müstəqil və suveren Azərbaycan iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri reallaşdırır və ölkəmizin təşəbbüsü, eləcə də iştirakı ilə qlobal layihələr uğurla icra edilir. İnkişaf strategiyası nəticəsində Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətə çevrilib. Bu inkişaf göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda özünü göstərir. Belə ki, ökəmizdə bütün sahələrdə olduğu kimi mülki aviasiya sahəsindən də sürətli inkişaf yan ötməyib.

### MİLLİ AVİASİYA AKADEMİYASINDA BEYNƏLXALQ TƏLİM MƏRKƏZİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 8-də Milli Aviasiya Akademiyasında Beynəlxalq Təlim Mərkəzinin açılışında iştirak ediblər. Beynəlxalq Təlim Mərkəzi "Azərbaycan Hava Yolları" QSC-nin təşəbbüsü ilə Milli Aviasiya Akademiyasının ərazisində yaradılıb. Mərkəz uçuş heyətinin fövqəladə vəziyyətlər üzrə hazırlığı, həmçinin hava hərəkətini idarəetmə dispetçerlərinin nəzəri və praktiki təlimi üçün nəzərdə tutulub. Yeni kompleksdə Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) və Avropa İttifaqı Aviasiya Təhlükəsizliyi Agentliyinin (EASA) tələblərinə uyğun olaraq "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsinin dispetçerləri hazırlanacaq. Bunun üçün bu sahədə dünyanın qabaqcıl aeronaviqasiya təhsil mərkəzlərindən olan Alman Aeronaviqasiya Akademiyasının (DFS) təhsil proqramı əsasında Aeronaviqasiya Təlim Mərkəzi fəaliyyət göstərəcək.

Beynəlxalq Təlim Mərkəzində Heydər Əliyev Beynəlxalq Hava Limanının 360 dərəcə panoramını əks etdirən TWR qüllə simulyatoru, həmçinin hava məkanının idarə edilməsi üzrə radar simulyator kompleksi quraşdırılıb. Bu sistemlər dispetçerlərin real əməliyyat şəraitində hazırlanması üçün imkan yaradır. Mərkəzdə, həmçinin hava limanlarında real iş şəraitinə uyğun müxtəlif xüsusi avtonəqliyyat vasitələri sürücülərinin bacarıqlarının təkmilləşdirilməsinə imkan verən müasir təlim trenajoru kompleksi quraşdırılıb.

Beynəlxalq Təlim Mərkəzində hər il hava hərəkətini idarəetmə üzrə təxminən 30 dispetçerin və 3 min hava gəmisi heyətinin hazırlanması planlaşdırılır. Bundan başqa, Mərkəz fövqəladə vəziyyətlərdə və müxtəlif qəza hallarında hava gəmisi kabininin daxilində təhlükəsizlik tədbirlərinin səmərəli icrası üçün Türkiyənin bu sahədə ixtisaslaşmış və beynəlxalq səviyyədə tanınmış şirkəti olan "SkyArt" tərəfindən "A320/A321 NEO CEET" tipli yeni nəsil hava gəmisi simulyatoru ilə təchiz edilib. Simulyatora "Boeing 787" təyyarəsi üzrə Qapı Təlim Qurğuları (Door Trainers), həmçinin real yanğın şəraitini simulyasiya edən yeni nəsil Yanğınsöndürmə Təlim Qurğuları (RFFT) daxildir. Yeni təlim infrastrukturu regionda aviasiya sahəsində kadr hazırlığının, həmçinin beynəlxalq standartlara uyğun tədris imkanlarının gücləndirilməsinə, bu sahədə rəqabətqabiliyyətli milli kadr potensialının formalaşmasına mühüm töhfə verəcək.

### MÜLKİ AVİASİYANIN STRATEJİ İNKİŞAFI

Qeyd edək ki, akademiya bu yüksək texnoloji və elmi tutumlu sahəni dünya standartları səviyyəsində tam olaraq ali, əlavə və xüsusi peşə təhsili proqramları üzrə kadrlarla təmin edir. Məhz mülki aviasiyada uçuşların təhlükəsizliyinə qoyulan yüksək tələblər Azərbaycanda aviasiya elminin və təhsilinin əsas istiqamətlərini özündə ehtiva etmişdir. Azərbaycanda mülki aviasiyanın strateji inkişaf istiqamətləri Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyən edilmişdir. Bu strategiyanı həyata keçirmək, genişləndirmək və inkişaf etdirmək, Azərbaycan mülki aviasiyasını dünya səviyyəsinə çıxarmaq, "Azərbaycan Hava Yolları" aviaşirkətini dünyanın nüfuzlu, müasir, təhlükəsiz və etibarlı dövlət aviadaşıyıcılarından birinə çevirmək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasəti, diqqəti və dəstəyi sayəsində mümkün olmuşdur.

Azərbaycan mülki aviasiyasının ən sürətli inkişaf yolu keçdiyini aydın görmək mümkündür. Aviasiya Akademiyası 1992-ci ildə Milli Aviasiya Mərkəzi kimi yaradılmışdır. 1994-cü ildə Milli Aviasiya Mərkəzinin adı dəyişdirilərək "Azərbaycan Hava Yolları" Dövlət Konserninin - indiki "Azərbaycan Hava Yolları" QSC-nin nəzdində Milli Aviasiya Akademiyası adlandırılmışdır. Ali təhsil müəssisəsi fəaliyyətə başlayarkən burada bir fakültə, iki ixtisas mövcud idi və 80 tələbə təhsil alırdı. Bu gün bu say əhəmiyyətli dərəcədə artıb. Milli Aviasiya Akademiyasında ixtisasların seçilməsi və əsaslandırılması respublikanın aerokosmik, nəqliyyat, energetika və bir sıra digər sahələrinin inkişafına istiqamətlənmiş dövlət siyasətinin ayrılmaz hissəsidir. Ali təhsil müəssisəsinin ixtisaslarının hər biri özündə müəyyən missiyanı daşıyır. Bununla yanaşı, akademiyanın bütün ixtisasları bu və ya digər şəkildə aerokosmik sahə ilə bağlıdır.

Fəaliyyətinin ilk illərində akademiya aviasiya texnikasının uçuş və texniki istismarı üçün kadrlar hazırlayırdı, lakin ölkə iqtisadiyyatının intensiv inkişafı sayəsində müasir tələblərə cavab verən yüksəkkateqoriyalı mütəxəssislərə zərurət yaranırdı.

İstifadə verilən Mərkəzin müasir texnologiyalarla təchiz olunması, burada son model uçuş simulyatorlarının quraşdırılması real uçuş şəraitinə yaxın mühitdə təcrübə qazanmağa imkan yaradır ki, bu da ümumilikdə uçuşların təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyət daşıyır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan bölgədə sülh və tərəfdaşlıq körpüsüdür

*Prezident İlham Əliyev Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni və Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçini qəbul edib*





***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni qəbul edib. Dövlətimizin başçısı Litvanın Baş nazirinin ölkəmizə səfərinin səmərəli olacağına və ikitərəfli əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.***

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən İnqa Ruqiniene Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğuladı. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edildi.

Litvanın Baş naziri Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını deyən Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində Azərbaycan dövləti tərəfindən genişmiqyaslı işlərin həyata keçirildiyini qeyd etdi. Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev regionda sülhün və Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin qurulmasının təşəbbüskarının məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu dedi. Ancaq bununla belə dövlətimizin başçısı qeyd etdi ki, həmin ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə indiyədək 400-dən çox insanın mina partlayışlarında həlak olduğunu və ya yaralandığını bildirdi. Görüşdə Azərbaycan-Litva əlaqələrinin ikitərəfli gündəliyi ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulandı. Söhbət zamanı regional məsələlərə də dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Türkiyə Respublikasının daxili işlər naziri



Mustafa Çiftçini qəbul edib. Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Mustafa Çiftçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı. Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulandı, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirildi. Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd edildi, bu xüsusda Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirliklərinin də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

## RƏSMİ XRONİKA

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də Qazaxıstan Respublikasının xarici işlər naziri Yermek Koşerbayevi və nəqliyyat naziri Nurlan Sauranbayevi qəbul edib.**

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkü qəbul edib.**

* * *

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.**

# Kövrək atəşkəs, yoxsa aktiv müharibə?

***İran İsrailin Livandakı hərəkətlərinə görə Hörmüz boğazından keçən bütün gəmiçilikləri dayandırıb. Donald Tramp ABŞ və İran arasında iki həftəlik atəşkəs elan etdikdən bir gün sonra Hörmüz boğazı faktiki olaraq bağlı qalır və İsrail qüvvələri Livanın cənubundakı Hizbullah mövqelərinə zərbələr endirməyə davam edir. ABŞ və İsrail atəşkəs razılaşmasının Livana şamil edilmədiyini iddia edirlər. Bu arada, İran hökuməti bunun əksini iddia edir və zərbələrə son qoyulmasını tələb edir. Çərşənbə günü Hörmüz boğazından yalnız bir neçə gəmi keçə bilib və İranın İslam İnqilabı Keşikçiləri Korpusu (İİKK) icazəsiz keçmək cəhdlərini məhv etməklə hədələyir. Boğazın açılması ABŞ və İran arasında atəşkəs üçün əsas şərtdir.***

Britaniya gəmi brokeri SSY BBC Verify-ə Fars körfəzindəki gəmilərin aşağıdakı mesajı aldığını təsdiqləyib: "Fars körfəzi və Oman dənizindəki bütün gəmilərə diqqət yetirin. Bu, İİKK Hərbi Dəniz Qüvvələrinin Hərbi Dəniz Stansiyasıdır. Hörmüz boğazı bağlı qalır və boğazdan keçməzdən əvvəl İİKK-dən icazə almalısınız. Üzməyə çalışan hər hansı bir gəmi hücuma məruz qalacaq və məhv ediləcək". Gəmilərin heyətləri mesajı beynəlxalq dəniz bildirişləri üçün istifadə olunan tezlikdə eşidiblər. Trafikin dayandırılması İsrailin Livana davam edən hücumları ilə əlaqələndirilir. Məlumata görə, bu səhər boğazdan ilk keçən Yunanıstan yük gəmisi NJ Earth və Liberiya bayrağı altında üzən Daytona Beach olub.

### İran qlobal iqtisadiyyatı girov saxlayır - CNN

İran Hörmüz boğazından təsirin vacib vasitəsi kimi istifadə edərək qlobal iqtisadiyyatı "enerji tələsinə" salıb. ABŞ prezidenti Donald Tramp Vaşinqton və Tehran arasında iki həftəlik atəşkəsi "mütləq qələbə" adlandırsa da, razılaşma şərtlərinin ətraflı təhlili İranın strateji üstünlüyünü nümayiş etdirir, CNN xəbər verir. Bu uğurun əsas rıçağı qlobal neft tədarükünün daşınması üçün əsas marşrut olan Hörmüz boğazına nəzarət idi. Gəmiçilik yollarının bərpası ilə bağlı razılaşma İranın qlobal iqtisadiyyatı genişmiqyaslı hərbi güc tətbiq etmədən idarə etmək qabiliyyətini təsdiqləyib.

## Dünyanın Hörmüz, İsrailin Hizbullah problemi

Neft və qaz bazarı atəşkəs xəbərinə dərhal reaksiya verib və qiymətlər 15-20% düşüb. Lakin ekspertlər xəbərdarlıq edirlər ki, boğaza giriş məhdud olaraq qaldığı üçün bu, yalnız müvəqqəti sabitlik illüziyasıdır. İran artıq dünya enerji ehtiyatlarının beşdə birinin və gübrə ixracının üçdə birinin keçdiyi gəmiçilik yolunu altı həftə ərzində bağlayaraq qlobal bazarları qeyri-sabitləşdirmək qabiliyyətini nümayiş etdirib. Bu, Asiya enerji sektorunda böhranlara, Avropada qiymətlərin artmasına və ABŞ-da yanacaq qiymətlərinin artmasına səbəb olub. Oxford Economics-in təhlilinə görə, İran boğazı "iqtisadi müharibə"nin təsirli bir alətinə çevirib və rejimin qorunmasına və atəşkəsə nail olmağa kömək edən strateji təzyiq göstərib.

Geosiyasi üstünlüklərdən əlavə, Tehran əhəmiyyətli maliyyə qazancları əldə edib. Bazar çatışmazlığı səbəbindən, adətən endirimlə satılan İran nefti bu dövrdə Brentdən daha yüksək qiymətlərlə satılırdı. Bu, hətta Vaşinqtonu qlobal böhranın azaldılması tədbirlərinin bir hissəsi olaraq 140 milyon barel İran neftinin ixracına müvəqqəti olaraq icazə verməyə vadar edib. İran hazırda uzunmüddətli perspektivdə Hörmüz boğazı üzərində dominantlığını möhkəmləndirməyə çalışır.

### Livan atəşi

İsrail iki həftəlik atəşkəs elan edildikdən bir neçə saat



sonra çərşənbə günü cənubi Livana bir sıra kütləvi hücumlar həyata keçirib. İsrail ordusu İranın dəstəklədiyi Hizbullah qrupunun mövqelərinə hücum etdiyini iddia edir. Livan Səhiyyə Nazirliyinin çərşənbə axşamı yayımladığı məlumata görə, atəş nəticəsində 100-dən çox insan həlak olub, 800-dən çox insan yaralanıb. İslam İnqilabı Keşikçiləri Korpusu İsrailin Livana hücumlarını dayandırmadığı təqdirdə qisas alacağı barədə xəbərdarlıq edib. "Müqavilələri pozan ABŞ-a və onun sionist müttəfiqi, cəlladına güclü xəbərdarlıq göndəririk: əgər sevimli Livana qarşı təcavüz dərhal dayandırılmasa, biz öz vəzifəmizi yerinə yetirib cavab verəcəyik", - deyə İran dövlət televiziyası tərəfindən yayımlanan bəyanatda bildirilir.

Növbəti danışıqlar

Çərşənbə günü İranla bağlı danışıqların şənbə günü Pakistanın paytaxtı İslamabadda keçiriləcəyi açıqlanıb. Ağ Evin mətbuat katibi Kerolin Levit bildirib ki, ABŞ-ı vitse-prezident J.D. Vance, eləcə də Donald Trampın xüsusi nümayəndələri Stiv Vitkoff və Cared Kuşner təmsil edəcək. Pakistanın Baş naziri əvvəllər danışıqların 10 aprel cümə günü İslamabadda başlayacağını gözlədiyini bildirmişdi.

***V.VƏLİLİ***

# Azərbaycanın qlobal siyasətdə artan nüfuzu, möhkəmlənən mövqeyi

***Reallıq ondan ibarətdir ki, bu gün dünyanın az qala dörd bir yanında qarşıdurmalar yaşanır. Bu qarşıdurmalardan əziyyət çəkən, əzilən xalqlardır. Dünyanı idarə edən böyük güclər isə baş verən qeyri-stabilliyə, amansız müharibələrə və münaqişələrə göz yumurlar. Bəzi hallarda isə qanlı müharibələrin təşkilatçıları və iştirakçıları elə özlərini dünyaya aparıcı dövlətlər kimi təqdim edən BMT Təhlükəsizlik Şurasının daimi üzvləri həyata keçirlər. Xoş halımıza ki, Azərbaycan dünyada sabitlik adasıdır. Ölkəmizdə dərin ictimai-siyasi sabitlik hökm sürür.***



Təbii ki, buna görə xalq olaraq Fateh Sərkərdə, Ölkə Prezidenti İlham Əliyevə minnətdarıq. Məhz Qarabağ Fatehi, Prezidentimiz İlham Əliyevin apardığı müdrik, uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyanın qibtə ilə yanaşdığı, həsədlə baxdığı sakit, sabit dövlətə çevrilib. 2025-ci ilin avqustun 8-də Ağ evdə baş tutan ABŞ-Azərbaycan ikitərəfli və ABŞ–Azərbaycan–Ermənistan üçtərəfli görüşü və imzalanan sənədlər Prezident İlham Əliyevin dünya siyasətində fenomen şəxsiyyətlərdən olduğunu təsdiqlədi.

Bir daha məlum oldu ki, Fateh Sərkərdə, Prezident İlham Əliyev hərbi, siyasi qələbənin banisi olmaqla yanaşı, həm də regionda sabitliyi təmin edə biləcək sülhün banisidir.

### İqtisadi uğurların zirvəsində

İqtisadi sahədə əldə olunan uğurlar Azərbaycanın nüfuzunu daha da artırıb. Artıq Azərbaycan dünya iqtisadiyyatında söz sahibi olan "qlobal oyunçu" statusunu qazanıb. Azərbaycanda yoxsulluğun səviyyəsinin azaldılması üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə yoxsulluğun real səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə ailə təsərrüfatları sahiblərinin illik anketləşdirilməsi tətbiq olundu. Azərbaycanda yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf üzrə 2 Dövlət Proqramı (2003–2005-ci və 2008–2015-ci illər üçün) qəbul edildi. Bunun nəticəsində son 20 il ərzində yoxsulluğun səviyyəsi, təxminən, 44,7 faizdən 5,2 faizədək azalıb. Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas is¬tiqamətlərindən biri əməkhaqlarının yüksəldiməsi, müxtəlif dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi və vətəndaşlar¬la məmurlar arasındakı münasibətlərdə şəffaflığın artırılması¬dır. Bu məqsədlə 2019-cu ilin mayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyətə başlayan DOST (Davamlı və Operativ Sosial Təminat) Agentliyi yaradılıb. Hazırda 7 DOST mərkəzi fəaliyyət göstərir, 2026-cı ilə qədər onların sayının 17-yə çatdırılması, 55 DOST filialının açılması və beləliklə, bütün ölkə üzrə xidmətlərin əhatə dairəsinin genişlən¬dirilməsi nəzərdə tutulur. DOST mərkəzləri vasitəsilə tam şəffaflıq və vətəndaş məm¬nunluğu əsasında "bir pəncərə" prinsipi ilə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində 15 istiqamət üzrə 159 xid¬mət göstərilir. 2023-cü il dekabrın 1-nə olan məlumata görə, bu mərkəzlərdə 1,9 milyon nəfərə xidmət göstərilib. Vətəndaşların xidmətlərdən məmnunluq dərəcəsi 98,1 faiz təşkil edir.

### Azərbaycan regionun aparıcı iqtisadi gücünə çevrilib

Azərbaycanın təşəbbüskarı olduğu və tərəfdaşları ilə birgə həyata keçirdiyi bir sıra irimiqyaslı layihələr təkcə ölkəmizin deyil, ümumilikdə regionun inkişafına mühüm töhfəsini verir. Bakı–Tbilisi-Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, eləcə də Cənub Qaz Dəhlizi kimi nəhəng layihə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Aprelin 6-da Prezident İlham Əliyev Gürcüstana səfəri zamanı mətbuat üçün bəyanatında bildirdi ki, bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir: "Ancaq bu ixrac yenə də Gürcüstandan başlayır və Gürcüstan burada birinci ölkədir. Həm Azərbaycan nefti, qazı Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılır, həm də Xəzərin şərq sahillərindən neft resursları Azərbaycan, Gürcüstan üzərindən keçirilir. Biz bu mövcud infrastruktur haqqında kifayət qədər danışmışıq. Bütün bu infrastruktur göz önündədir və artıq 20 ildir ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Cənub Qaz Dəhlizi də ondan sonra icra edilmişdir və bu gün bu infrastruktur, əslində, böyük coğrafiya üçün mühüm əhəmiyyət daşıyır.

### Qarabağ qurulur və inkişaf edir

Qazanılan uğurlu nəticələr Azərbaycanın iqtisadi inkişaf modelinin sabitliyindən xəbər verir. 2026-cı ilin yanvar-fevral aylarında ölkədə 18473,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 1,4 faiz artmışdır. ÜDM istehsalının 32,7 faizi sənaye, 11,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi tikinti, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi informasiya və rabitə sahələrinin, 24,1 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 12,3 faizini təşkil etmişdir.

İşğaldan azad edilən ərazilərdə genişmiqyaslı quruculuq, abadlıq, tikinti və təmir işləri həyata keçirilir. Erməni vandalizmi nəticəsində dağıdılmış ərazilərdə yeni şəhər və qəsəbələr, kəndlər salınır. 2021-ci ildən indiyə qədər azad ərazilərdə bərpa və quruculuq işlərinə 19 milyard manatdan çox vəsait ayırıb. Bu tədbirlər sayəsində Böyük Qayıdış proqramının icrası sürətlənib, bu illər ərzində Xocalıya, Şuşaya, Xankəndinə, Laçın, Cəbrayıl və digər ərazilərdə sakinlərin öz doğma yurdalarına qayıdışı gerçəkləşib. Bütövlükdə isə azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır, işləyir - həm yeni açılmış müəssisələrdə, sosial obyektlərdə, inşaat işlərində. 2026-cı ilin sonunadək 34 min 500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunmasına xüsusi diqqət göstərilir. Ərazilərə köçürülən 8673 şəxsin məşğulluğu təmin olunub, o cümlədən 754 sakin üçün isə özünüməşğulluq proqramı üzrə kiçik bizneslər qurulub. 383 sakin isə işəgötürənlərlə birgə təşkil olunan peşə kurslarına cəlb edilib.

***İ.ƏLİYEV***

# Hansı hallarda şəxsi əmlakı itirə bilərik?



VƏKİL AÇIQLADI

"Mülkiyyət hüququ ümumiyyətlə əşya üzərində sahiblik, istifadə və sərəncam vermə imkanlarını özündə birləşdirir. Lakin bu hüquq daimi deyil və müəyyən hallarda sona çata, yəni itirilə bilər. Bu itirmə həm mülkiyyətçinin öz iradəsi ilə, həm də qanunla nəzərdə tutulmuş hallarda məcburi şəkildə baş verə bilər. Əmlakın itirilməsi dedikdə, mülkiyyət hüququnun ya tam xitam olunması, ya da başqa şəxsə keçməsi başa düşülür. Bu anlayış yalnız əşyanın fiziki yox olması ilə deyil, hüququn subyektinin dəyişməsi ilə bağlıdır və məhkəmə praktikasında həlledici əhəmiyyət kəsb edir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Əminə İsmayılzadə deyib. O bildirib ki, mülkiyyət hüququnun itirilməsi iki istiqamətdə baş verir: "Birinci halda, bu proses könüllü iradədən asılı şəkildə olur. Əqdlər vasitəsilə (alqı-satqı, bağışlama və s.) mülkiyyət hüququ tərəflərin iradəsinin hüquqi ifadəsi kimi keçir. Mülkiyyətdən imtina isə yalnız açıq və hüquqi davranışla mümkündür. (AR MM 204-cü maddə)

İkinci halda isə mülkiyyət hüququ məcburi qaydada, yəni iradədən asılı olmayaraq itirilir. Bu isə artıq qanunvericilikdə konkret əsaslarla nəzərdə tutulur və dövlət müdaxiləsi ilə həyata keçirilir. Məsələn, borclara görə əmlakın alınması, dövlət ehtiyacları üçün əmlakın özgəninkiləşdirilməsi və ya digər xüsusi hallar bur aiddir. Aşağıda göstərilən hallar isə məhz mülkiyyət hüququnun hansı hallarda və hansı qaydada itirildiyini daha detallı şəkildə tənzimləyir: (AR MM 203-cü maddə)

- Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat yazısı ləğv edildikdə, habelə daşınmaz əmlak tamamilə məhv olduqda, daşınmaz əmlaka mülkiyyət hüququ itirilir.

- Daşınar əşyanın mülkiyyətçisi mülkiyyət hüququndan imtina etdikdə, əşya məhv olduqda və ya sonralar hər hansı başqa şəxs bu əşyaya mülkiyyət hüququnu əldə etdikdə, sahibliyin itib-itməməsindən asılı olmayaraq, daşınar əşyaya mülkiyyət hüququ itirilir.

Əmlakın məcburi şəkildə itirilməsi əsasları:

• öhdəliklər üzrə tutmanın əmlaka yönəldilməsi;

• qanuna görə həmin şəxsə mənsub ola bilməyən əmlakın özgəninkiləşdirilməsi;

• sahənin alınması ilə əlaqədar daşınmaz əmlakın özgəninkiləşdirilməsi;

• təsərrüfatsızcasına saxlanan mədəni sərvətlərin satın alınması;

• rekvizisiya;

• müsadirə.

Mülkiyyət hüququnun itirilməsinin hallarından biri kimi tapıntını da qeyd etmək olar. Belə ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 186-cı maddəsinə əsasən, itirilmiş əşyanı tapan şəxs bu barədə müvafiq qaydada lazımi şəxs və qurumlara məlumat verməli və əşyanı geri qaytarmalıdır.

Lakin qanunvericilik müəyyən edir ki, əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla, tapıntı barədə məlumat verildiyi andan etibarən bir il müddət keçdikdən sonra həmin əşya üzərində mülkiyyət hüququ onu tapan şəxsə keçir. Bu halda həmin əşyaya bütün başqa hüquqlara xitam verilir və faktiki olaraq əşyaya dair mülkiyyət hüququ itirilmiş olur.

Bu tip mübahisələrdə əsas problem və çətinliklər bunlardır:

a) Fakt və hüquq ziddiyyəti – faktiki istifadə edən ilə hüquqi sahib fərqli olduqda

b) Sübutetmə yükü – imtinanın və ya əqdin reallığının sübutu

c) Vicdanlı əldə etmə – əldə edən şəxsin vicdanlı sahib olub-olmaması

Əmlakın itirilməsi yalnız hüququn yox olması deyil, hüquqi münasibətin dəyişməsidir. Bu məsələdə əsas nəzərə alınmalı məqam odur ki, mülkiyyət hüququnun qorunması onun heç vaxt itirilməməsi ilə deyil, itirilmə mexanizmlərinin qanuni, ədalətli və əsaslı olması ilə təmin olunur".

***Ayşən Vəli***

# Müasir ailə modeli: üç və ya dörd nəfər

***Yeni ailə modelini formalaşdırmışıq. Nəzər salsaq görərik ki, yüzlələ azərbaycanlı ailələsində ata-ana və bir qız, bir oğlan var. Bəs sual edən varmı ki, nə üçün bir qız, bir oğlan? Belə ailələrin əksəriyyətində ilk uşaq qızdır. Məhz qız olduğu üçün də valideynlər oğlan axtarışına çıxır. Nə etməli ki, ikinci uşaq hökmən oğlan olsun.***

Yeni bir proses başlayır: analar növbəti hamiləlikləri o vaxta qədər pozur ki, USM ona oğlun olacaq deyir. Beləliklə də birinci uşaqla ikinci arasında 2-3, bəzən də daha çox qız uşağını qurban veririk. Onlar selektiv abortların qurbanına çevrilir.

Yox, əgər ailədə ilk uşaq oğlandırsa, müasir valideynlər bəlkə də bununla kifayətlənərlər. Lakin ata-anaların təkidi ilə, "bir uşaqla olmaz" tələbi, umukusüsü ilə bir neçə ildən sonra ikinci uşağın doğulmasını planlaşdırırlar. Bu dəfə isə fərq etməz, qız, ya oğlan olsun. Çünki istənilən əsas övlad-oğlan artıq onlarda var.

Beləliklə, bu qənaətə gəlmək olar ki, cəmiyyətimiz ciddi bir xəstəliyə düçar olub. Yaxşı həkimlər lazımdır ki, bu səhv psixoloji vəziyyətdən bizi çıxara bilsin. Ailənin, övladların dəyərini bizə anlada bilsin. Uşaqların çoxsaylı olmasının onların gələcəkdə bir-birinə dəstək, arxa-dayaq olmasını anlada bilsin.

Bizə yaxşı ağsaqqal və ağbirçəklər lazımdır ki, əvvəlki illərdən söhbət açsın. Çoxuşaqlı ailələrdən, çoxsaylı bacı-qardaşlardan danışsın. Belə ailələrdə yaşanan maraqlı anları, xoşbəxtliyi anlatsın. Toy-ziyafətlərdə əmi-dayı, bibi-xala uşaqlarının gəlinin, bəyin ətrafında yaratdığı xoş xatirələri xatırlatsın. Onların bir-birilərinə arxa-dayaq, dost-rəfiqə olmasından, bununla da bütövlükdə həyatlarının maraqlı keçməsindən söhbət açsın. Hansı ki, biz uşaqlarımızı bu xoşbəxtlikdən məhrum edənlərik.

Nə oldu bizlərə, nə üçün bu qədər dəyişdik? Nə üçün nənə-babalarımızın ardınca deyil, Avropanın ardınca getməyə üstünlük verdik? Nə üçün özümüzün neçə-neçə əmi-dayımız, xala-bibimiz ola-ola övladlarımızı bu qohumlardan məhrum edirik? Bu haqqı bizə kim verir? Avropamı? Axı əsrlərin o üzündən bəri onlarla bizim bütün dəyərlərimiz fərqli olub. Onlar ailə dəyərlərinə görə həmişə bizə köks ötürüblər. Bizi nümunə göstəriblər. Çoxuşaqlı ailələr onlar üçün bir möcüzə qaynağı



olub. Biz nə edirik? Bir vaxtlar bizə oxşamağa çalışanlara indi biz oxşayırıq?. İndi artıq 5 və ya daha artıq uşağı olan ailələr demək olar, çox azdır. Bu isə onu müzakirələrə səbəb edib ki, Azərbaycanda çoxuşaqlı ailə 5 və daha artıq yox, 3 və daha artıq uşaqlı ailələr hesab edilməlidir.

### Oğlan və qız fərqi

2024-cü ilin yanvar-iyul ayları ərzində 31 306-sı oğlan, 27 542-i isə qız olmaqla ümumilikdə 58 848 uşağın doğumu dövlət qeydiyyatına alınıb.

2022-ci ildə Azərbaycanda 122846 körpə doğulub. Onlardan 64940 nəfəri oğlan, 57906 nəfəri isə qız uşaqlarıdır. Göründüyü kimi, ötən illərin hər birində olduğu kimi, oğlan uşaqları qızlardan çox doğulub.

2021-ci ilin statistikasına əsasən, Azərbaycanda 100 qıza 115 oğlan düşür. Əvvəl selektiv aborta görə siyahıda liderlik Çinə məxsus idi və Azərbaycan ikinci yerdə idi. İndi vəziyyət əksinədir. Belə ki, hazırda Çində bu göstərici 100-110,3 təşkil edir. Nəzərə almaq lazımdır ki, dünyaya gələn uşaqların cins nisbəti bioloji normaya uyğun olaraq 102-106-dır. Belə ki, heç bir xarici müdaxilə olmadığı təqdirdə doğulan hər 100 nəfər qız uşağına 102-106 oğlan uşağı düşür. 1990-cı illərin əvvəllərindən Azərbaycanda bu nisbətin pozulması müşahidə edilir.

BMT-nin Əhali Fondunun hesablamalarına görə, Azərbaycanda doğulan uşaqlar arasında cinsə görə nisbətin ciddi şəkildə pozulması davam etsə, 2050-ci ilə qədər hər il doğulan oğlan uşaqlarının sayı qız uşaqlarının sayından 12 000-15 000 nəfər çox olacaq. Ekspertlər bu fikirdədir ki, cəmiyyətdə kişilərin sayının bu artımla davam etməsi ölkənin acınacaqlı nəticələrlə üz-üzə qalması halına gətirib çıxara bilər. Bura Gender bərabərsizliyi, zorakılıq, erkən nikah, insan alveri və kriminal səviyyənin artması aiddir.

### Selektiv abortlar insanlığa qarşı haqsızlıq, təhqirdir

Bu abort növü qadınla kişi arasında bərabərliyə zidd, ən təhlükəli vasitədir. Hansı ki, biz Gender bərabərliyindən danışırıq, lakin bu bərabərliyi pozan birinci amil selektiv abortlardır. Bu gün son illərin statistikasına nəzər salanda bütün illərdə doğulan uşaqlar arasında oğlanların qızlardan artıq olmasını müşahidə edirik. Bunun yaratdığı problemlər isə artıq hiss olunmaqdadır. Yaxın gələcəkdə isə bu problemin ağırlığı çiyinlərimizi yara edəcək. Bu gün Azərbaycanın selektiv abortlara görə dünyada birinci yerdə olması artıq səhiyyə sistemində həyəcan təbili çalınmasının vaxtının ötdüyünü göstərir. Selektiv abortlar indiyədək niyə qadağan olunmayıb? Görəsən bunun qarşısını nə kəsib? Kiminsə haqqı deyil dünyaya gətirəcəyi uşağın cinsini əvvəlcədən bilsin. Heç kimin də bunu bilməmək hüququ pozulmur. Bəs belə isə bu növ abort nə üçün qadağan olunmur?

Oğlanların sayı artır, qızların sayı dəfələrlə azalır. Biz gələcəkdə ana olacaq qız tapa bilməyəcəyik. Bir əmili, xalalı uşaq görməyəcəyik. Ən dəhşətlisi isə bacısız və qardaşsız bir cəmiyyətə doğru gedirik. Dünən ailələrimizdə süfrə arxasında 7-8, bəzən 10-11 nəfər əyləşdiyi halda, indi üç və ya dörd nəfəri görmək olur. Yaxın gələcəkdə cəmiyyətimizdə xala, əmi qohumluq dərəcəsində olan az sayda adamlar olacaq, fikirləşəndə adam dəhşətə gəlir. Uşaqlarımızı ən yaxın qohumlardan məhrum edirik, onları gələcəkdə tək yaşamağa məhkum edirik.

Bu barədə düşünək bəlkə. Hələ də gec deyil...

***Mətanət Məmmədova***

# Tramp İranda nə axtarır: NEFT, yoxsa molla?

"Artıq tam əminliklə demək olar ki, ABŞ-ın İrana qarşı başlatdığı müharibənin heç bir məntiqi hədəfi olmayan, yalnız sərvət və iqtisadi maraqlar üzərində qurulan xaotik plan olduğu təsdiqlənib. Artıq iş o yerə çatıb ki, ABŞ prezidenti Donald Tramp İrana verdiyi vaxt başa çatan kimi hücuma keçib, daha sonra dərhal atəşkəs elan edən, heç bir ciddi dövlət rəhbərinə yaraşmayan şəkildə İranda bütün sivilizasiyanı məhv edəcəyi ilə hədələyən çarəsiz duruma düşüb. Hətta bundan bir neçə gün öncə Ağ Evdə, Şükranlıq gününə həsr edilən tədbirdəcə neft və daha çox qazanc üçün müharibəni davam etdirməyə hazır olduğunu elan etmişdi. Onun oğlanları isə ərəb ölkələrinə milyard dollarlıq dronlar satmağa hazırlaşırlar. Sadəcə bu iki fakt onu təsdiqləyir ki, hazırkı ABŞ Administrasiyası əksər ölkə rəhbərlərinə "xərac" kəsib milyardlar qazanmağ-la yanaşı, həmçinin silah satışı və neft gəlirləri üçün də çarpışır."

Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov D.Trampın müharibənin ilk günlərində İranda rejim dəyişikliyini hədəf qoyduqları barədəki bəyanatını xatırladaraq, artıq bu planın fiaskoya uğradığını qeyd edib. "Diqqət edin, artıq iki aya yaxındır davam edən hazırkı müharibədə nə İranda rejim dəyişildi, nə İranın nüvə potensialı və hərbi arsenalı yerlə yeksan edildi, nə də bu ölkənin ictimai fikrində hazırkı Xomenei rejimi əleyhinə etirazlar yaradıldı. Bunların heç biri baş tutmadı. Əksinə hazırda dünyada İran daha populyar və güclü dövlət imicinə sahibləndi. Bu məntiqsiz müharibə ABŞ-ın hegemonluğunu və İsrailin toxunulmazlığı mifini də dağıtdı. Bəs bilə-bilə ki, bütün bunlar alınmayacaq, əksinə bu məntiqsiz müharibə İranın nüfuzunu yüksəldib əvəzində ABŞ-ı, şəxsən



Mətləb Salahov: "ABŞ rəhbəri "Hörmüz toruna" düşüb"

D.Trampı dünyanın gözündə aşağılayacaq, bəs o zaman niyə Vaşinqton Administrasiyası bu müharibəyə başladı? Əlbəttə, neft, silah ticarəti və bizə gizli qalan maraqlar üçün. Bu uğursuz müharibə həm də ABŞ-ın dünyadakı əsas rəqibləri olan Çin və Rusiya kimi böyük rəqiblərinin iqtisadi və siyasi mövqelərini xeyli dərəcədə gücləndirib. Görünən odur ki, D.Tramp "Hörmüz toruna" düşüb. Çıxışı isə zaman göstərəcək".

***Afət Tahirqızı***



Elçin Bayramlı

# Ölümüzə niyə ehsan vermirik?

***Azərbaycanda son vaxtlar bəzi yerlərdə yas məclislərinin normal vəziyyətə qaytarılması ilə bağlı proses başlayıb. Bəzi kəndlərdə sakinlər ağsaqqaların tövsiyyəsi əsasında bundan sonra yas məclislərinin sadə qaydada keçirilməsi haqda qərara gəliblər. Lakin çox təəssüf ki, bu gün ölkəmizdə yas məclisləri ilə bağlı vəziyyət acınacaqlıdır, hətta bir biabırçılığa çevrilib.***

Bu biabırçılığa qarşı bəzi ziyalılarımız uzun illərdir ki, mübarizə aparsalar da, hələlik bu sahədə ciddi nəticə əldə edilməmişdir- bir-iki hal istisna olmaqla bu barədə dəyişiklik yoxdur.

Hazırki yas mərasimləri, xüsusən yemək süfrəsi nə dini, nə də sosial baxımdan doğru deyil. Qəribəsi odur ki, bu yemək mərasiminə "ehsan" deyilir, amma ortada ehsan yoxdur. Məlum olduğu kimi, ehsan konkret olaraq, pulsuz, təmənnasız şəkildə təqdim olunan bir xeyir işdir. Bu gün isə yas mərasimləri restoran xidmətinə çevrilib: insanlara yemək-içmək verilir, daha sonra isə onlar pul yazılır, vəsait toplanır. Bu, ehsan anlayışına tamamilə ziddir. Bu gün ehsan süfrələrində o qədər zəngin təamlar təqdim olunur ki, bu artıq yas deyil, ziyafət məclisini xatırladır. Bu isə yas sahibinin həm maddi, həm də mənəvi cəhətdən ağır vəziyyətə düşməsi deməkdir: böyük xərclər, yorucu hazırlıq, bəzən hətta borca düşmək.

Nə İslam dinində, nə də başqa ölkələrdə bu cür adətə rast gəlinmir. Bir insanın doğması rəhmətə gedəndə insanlar onun dərdinə şərik olmağa, təskinlik verməyə gəlməlidirlər- çoxlu rəngarəng yeməklər yeməyə yox.

Əgər doğrudan da ehsan vermək niyyətimiz varsa, bu, tamamilə pulsuz olmalıdır. Məsələn, yalnız sadə bir çay süfrəsi təşkil edilə bilər. Çay ehsanı verməyin xərci 100 manat, ən çoxu 200 manata başa gələ bilər. Hətta buna da imkanı olmayan adamlar su ehsan edə bilər. Qədimdən belə yası düşən yemək vermirdi, əksinə, onun evinə yemək gətirirdi qohumlar, qonşular. Uzun illər aparılan mübarizəyə baxmayaraq mövcud vəziyyət göstərir ki, burada maarifləndirmə tamamilə faydasız bir işdir. Bu məsələnin inzibati yollarla tənzimlənməsindən başqa yol qalmır. Düzdür, bu, mənəvi məsələdir və qanunla tənzimlənməsi çətindir. Lakin bəzi ölkələrdə belə təcrübələr var. Burada əsas rol cəmiyyətin ziyalılarına, ağsaqqallarına, məmurlarına, tanınmış şəxslərə və din xadimlərinə düşməlidir. Əgər bu şəxslər sadə yas məclisləri təşkil etsələr, pul yığmasalar, xalq da onlardan örnək götürər. Və inzibati üsullara ehtiyac qalmaz.

Əks təqdirdə, bu yanlış adət daha da genişlənəcək və nəticədə mənəvi deqradasiya dərinləşəcək. Yas məclisində elə bir görüntü yaranır ki, sanki yas məclisi deyil, təmtəraqlı ziyafət keçirilir. Bu isə yas sahibini həm psixoloji, həm də maddi baxımdan əzir. Cəmiyyətin sağlam təbəqələri- ziyalılar, din adamları, mədəniyyət xadimləri bu sahədə təşəbbüs göstərsələr, cəmiyyət də onlara baxıb doğru yolu seçəcək. Əks halda, bu mənəvi fəlakət daha da dərinləşəcək.

Bu məsələdə Qafqaz Müsəlmanları İdarəsi maraqlı olmalıdır. Mollalara şərt qoyulmalıdır ki, bol yemək verilən yas məclislərinə getməsinlər. Bu, bəzi insanların məcburən qaydalara riayət etməsinə səbəb olar. Dinə zidd olan mərasimlərə din xadimləri qatılmamalıdır.

Yas məclisində yemək vermək nə dini baxımdan doğrudur, nə də insanlığa yaraşır. Belə zəngin ehsan vermək əslində deməkdir ki, mən dini, mənəviyyatı və Qurani-Kərimi qəbul etmirəm. Digər bir məsələ isə qəbir daşları ilə bağlıdır. Bu sahədə də standartların müəyyən olunmasına ehtiyac var. Başdaşları sadə, kiçik və fərqləndirici olmayan formada olmalıdır. Kimin pulu çoxdur, nəhəng heykəl qoyur; kimin imkanı yoxdur, başdaşı belə tapa bilmir. Bu, cəmiyyətdə öləndə belə ayrı-seçkiliyin yaranması deməkdir. Bu isə ağır sosial yük və mənəvi deqradasiyadır.

Qəbir daşlarının forması və ölçüsü məsələsi qanunla tənzimlənə bilər. Nəticə olaraq, yas məclislərində təmtəraq yox, təvazökarlıq, israf yox, səmimiyyət olmalıdır. Əgər biz bu sahədə dəyişiklik istəyiriksə, əvvəlcə özümüz nümunə olmalıyıq.



# Valideynlərin bilmədiyi risk: körpələrdə qida allergiyası

**_1 yaşa qədər uşaqlarda qidalanma dövrü həm inkişaf, həm də immun sistemin formalaşması baxımından ən həssas mərhələlərdən biridir. Bu dövrdə körpə yeni qidalarla tanış olduqca, bəzi hallarda orqanizm müəyyən qidalara qarşı həddindən artıq reaksiya verə bilər ki, buna qida allergiyası deyilir. Araşdırmalar göstərir ki, 5 yaşdan kiçik uşaqların təxminən 8%-də qida allergiyası müşahidə olunur. Bəs, hansı qidalar allergiya yaradır?_**



SİA mövzu ilə bağlı araşdırma edib.

Vacib məqam odur ki, allergiya ilə sadə qida dözümsüzlüyü eyni şey deyil. Allergiya immun sisteminin reaksiyasıdır və bəzən ağır nəticələrə – hətta həyati təhlükəyə səbəb ola bilər. Buna görə valideynlərin hansı qidaların riskli olduğunu bilməsi olduqca önəmlidir.

1 yaşa qədər uşaqlarda allergiya yarada bilən əsas qidalar

Elmi mənbələrə görə, allergiyaların böyük hissəsi müəyyən "əsas allergen qidalar"la bağlıdır və bunlar ümumi halların təxminən 90%-ni təşkil edir.

Ən çox allergiya yaradan qidalar:

-İnək südü və süd məhsulları

-Yumurta

-Yerfıstığı (fıstıq)

-Digər qoz-fındıq növləri (badam, qoz və s.)

-Buğda və gluten tərkibli qidalar

-Soya məhsulları

-Balıq

-Dəniz məhsulları (krevet, xərçəng və s.)

-Küncüt və digər toxumlar

Bunlara əlavə olaraq bəzi hallarda:

-Paxlalılar (lobya, noxud, mərcimək)

-Kərəviz, xardal

-Quru meyvələrdə olan bəzi qatqılar (məsələn, sulfitlər) da allergiya verə bilər

Niyə məhz bu qidalar risklidir?

Bu qidaların tərkibində olan zülallar immun sistem tərəfindən "təhlükə" kimi qəbul edilə bilər. Nəticədə orqanizm histamin kimi maddələr ifraz edir və allergik reaksiya yaranır. Xüsusilə süd, yumurta və fıstıq uşaqlarda ən çox rast gəlinən allergiya səbəbləridir. Fıstıq, qoz-fındıq və dəniz məhsulları isə daha ağır reaksiyalar yarada bilər.

Allergiyanın əlamətləri necə olur?

Körpələrdə allergiya adətən qidanı qəbul etdikdən sonra qısa müddətdə özünü göstərir.

Ən çox rast gəlinən əlamətlər:

-Dəri səpkisi, qaşınma, ekzema

-Üzdə və ya dodaqlarda şişkinlik

-Qusma, ishal

-Qarın ağrısı

-Nəfəs alma çətinliyi

-Burun axıntısı və ya öskürək

Ağır hallarda anafilaksi (həyati təhlükəli allergik reaksiya) yarana bilər ki, bu zaman təcili tibbi yardım vacibdir.

Maraqlı və vacib məqam: gecikdirmək yox, düzgün təqdim etmək

Keçmişdə bu qidaların gec verilməsi tövsiyə olunurdu. Amma yeni araşdırmalar göstərir ki allergiya yaradan qidaları təxminən 6 aydan sonra tədricən vermək daha doğrudur. Gecikdirmək əksinə allergiya riskini artıra bilər.

1 yaşa qədər uşaqlarda allergiya riski əsasən müəyyən qida qrupları ilə bağlıdır və valideynlərin bu qidaları tanıması çox vacibdir. Lakin bu o demək deyil ki, həmin qidalar tam qadağandır. Əksinə, düzgün və mərhələli şəkildə təqdim olunması həm təhlükəsizliyi təmin edir, həm də gələcəkdə allergiya riskini azalda bilər.

*Ayşən Vəli*





*İman ABDUYEV, politoloq*

# Strateji tərəfdaşlıq genişlənir

***Azərbaycan Prezidenti Cənab İlham Əliyevin aprelin 6-da Gürcüstana dövlət səfəri çox mühüm siyasi və strateji əhəmiyyət daşıyır. Cənubi Qafqazda siyasi sabitliyin, iqtisadi inkişafın və regional əməkdaşlığın təmin olunmasında Azərbaycan-Gürcüstan münasibətləri xüsusi yer tutur. Bu münasibətlər uzun illərdir qarşılıqlı etimad, ortaq maraqlar və strateji tərəfdaşlıq prinsipləri əsasında inkişaf edir. Bu gün Bakı ilə Tbilisi arasında formalaşmış əməkdaşlıq modeli region üçün ən uğurlu nümunələrdən biri hesab olunur. Səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidze mətbuata bəyanatlarla çıxış ediblər.***

Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin mətbuata bəyanatları zamanı səsləndirilən fikirlər də bir daha göstərdi ki, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir və gələcəkdə daha da genişlənəcək:

"Dövlət başçısı vurğuladı ki, Azərbaycan ilə Gürcüstan arasında siyasi əlaqələr çox yüksək səviyyədədir, ölkələrimiz bir-birinin suverenliyini və ərazi bütövlüyünü daim dəstəkləyir. Bu yanaşma regionda sabitliyin qorunması baxımından mühüm əhəmiyyət daşıyır".

Göründüyü kimi, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində Azərbaycan bu gün regionun əsas siyasi və iqtisadi güc mərkəzinə çevrilib. Ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, söz sahibi olan dövlət kimi mövqeyini daha da gücləndirib. Azərbaycanın balanslaşdırılmış və milli maraqlara əsaslanan xarici siyasəti nəticəsində region ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq qurulub.

Məhz Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan qlobal enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəyə çevrilib, Aərbaycanın beynəlxalq nüfuzunu artırıb və ölkəmizin geostrateji mövqeyini daha da gücləndirib. Dövlət başçımız mətbuata bəyanatında Orta Dəhlizin əhəmiyyətinə də xüsusi diqqət çəkərək hazırda Avropa ilə Asiyanı birləşdirən marşrut üzrə yükdaşımaların həcminin artığını və Azərbaycan-Gürcüstan əməkdaşlığının bu istiqamətdə də həlledici rol oynadığını vurğuladı.

Ümumiyyətlə, səfər çərçivəsində regional təhlükəsizlik və sülh məsələlərinin müzakirə olunması Azərbaycanın məsuliyyətli və təşəbbüskar dövlət kimi çıxış etdiyini göstərir. Prezident İlham Əliyevin Cənubi Qafqazın sülh və əməkdaşlıq məkanına çevrilməsi ilə bağlı fikirləri isə Azərbaycanın regionda sabitliyin formalaşmasında aparıcı rol oynadığını təsdiqləyir.

Onu da qeyd edim ki, bu gün Azərbaycan-Gürcüstan münasibətləri yalnız iki ölkənin maraqlarına xidmət etmir. Ümumilikdə bu səfər iki ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsindən əlavə, regional sabitliyin güclənməsinə, iqtisadi və enerji əməkdaşlığının genişlənməsinə xidmət edir. Bu tərəfdaşlıq bütövlükdə Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və inkişafın əsas təminatlarından biri kimi çıxış edir. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövləti kimi öz mövqeyini daha da möhkəmləndirib və ölkəmiz gələcəkdə də beynəlxalq əməkdaşlıq layihələrinin mərkəzində yer almaqda davam edəcəkdir.

Bu səfər bir daha göstərir ki, Azərbaycan xarici siyasətində sabit, etibarlı və uzunmüddətli tərəfdaşlıq prinsiplərinə əsaslanır. Səfər zamanı səsləndirilən bəyanatlar və keçirilən görüşlər Azərbaycan–Gürcüstan münasibətlərinin yüksək səviyyədə olduğunu təsdiqləyir.

# 7 Aprel – Ümumdünya Sağlamlıq Günü: Birlikdə sağlamlıq üçün, elmlə dayan !



***Bu il Ümumdünya Sağlamlıq Günü "Birlikdə sağlamlıq üçün. Elmlə dayan!" şüarı altında qeyd olunur. Dünyada sağlamlığın qorunması və xəstəliklərin qarşısının alınması istiqamətində hər birimizin məsuliyyəti vurğulanır. Bu mövzuya dair Mərkəzi Gömrük Hospitalının Poliklinika şöbəsinin rəisi, kardioloq Tamilla Əliyeva ilə maarifləndirici müsahibəni təqdim edirik.***

**- Tamilla xanım, Ümumdünya Sağlamlıq Gününün mahiyyəti və cəmiyyət üçün əhəmiyyəti barədə ətraflı məlumat verməyinizi xahiş edirik.**

- Ümumdünya Sağlamlıq Günü hər il bütün dünyada sağlamlıq məsələlərinə diqqətin artırılması məqsədilə qeyd olunur. Uzun və sağlam ömür yaşamağa nail olmaq və sağlamlığın möhkəmləndirilməsi müasir səhiyyənin qarşısında duran başlıca vəzifələrdəndir. 1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yaradılmışdır və həmin tarixdən dünyanın 194 ölkəsi, o cümlədən Azərbaycan təşkilata üzv qəbul olunub. 1950-ci ildən başlayaraq, hazırda bütün dünyada həmin tarix Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. Bu il Ümumdünya Sağlamlıq Gününün "Birlikdə sağlamlıq üçün. Elmlə dayan!" şüarı iki əsas mesajı birləşdirir: "Birlikdə sağlamlıq üçün" – sağlamlıq yalnız fərdi səylə deyil, həm də cəmiyyət olaraq birgə çalışmaqla qorunur. "Elmlə dayan" isə tibbin, elmi araşdırmaların və sübutlara əsaslanan biliklərin sağlamlığımız üçün nə qədər vacib olduğunu göstərir. İnsanlar yalnız elmi biliklər və düzgün məlumatlar vasitəsilə sağlam həyat sürə bilərlər.

Ümumdünya Səhiyyə Təşkilatının çağırışına görə, dünya üzrə hər kəs birlikdə işləməyə və elmi dəstəkləməyə çağırılır, çünki bunlar daha yaxşı sağlamlıq üçün əsas hərəkətverici qüvvələrdir. Bu kampaniya Ümumdünya Səhiyyə Təşkilatının 7 aprel 1948-ci ildə təsis edilməsinin ildönümü münasibətilə başlayır və ilboyu davam edəcək ictimai sağlamlıq təşviqatını əhatə edir. Bu gün insanlara xatırladır ki, sağlamlıq sadəcə xəstəliyin olmaması deyil, eyni zamanda fiziki güc, psixoloji sabitlik və sosial rifahın vəhdətidir. Sağlam cəmiyyət formalaşdırmaq üçün hər bir fərdin sağlamlığına məsuliyyətlə yanaşması vacibdir və bu yanaşma gündəlik həyatımızın ayrılmaz hissəsinə çevrilməlidir.

**- Son yüz ildə insan sağlamlığı sahəsində hansı irəliləyişlər əldə olunub?**

- Son yüz ildə elmi tərəqqi və beynəlxalq əməkdaşlıq sayəsində insan sağlamlığı dramatik şəkildə yaxşılaşıb. Məsələn: 2000-ci ildən bu yana qlobal ana ölüm göstəricisi 40%-dən çox azalıb. Həmçinin, 5 yaşdan kiçik uşaqlar arasında ölüm halları 50%-dən çox azalıb. Texnologiya, elmi bilik və bacarıqların inkişafı, həmçinin müxtəlif ölkələr, sahələr və ixtisaslar arasında əməkdaşlıq sayəsində əvvəllər həyati təhlükə yaradan məsələlər – yüksək qan təzyiqi, xərçəng diaqnozları və ya HIV infeksiyası kimi – artıq idarə olunan sağlamlıq problemlərinə çevrilib və insanların ömrünü uzadır, həyat keyfiyyətini yaxşılaşdırır.

**- Tamilla həkim, sağlam həyat tərzi anlayışını daha geniş şəkildə necə izah edərdiniz?**

- Sağlam həyat tərzi insanın gündəlik davranış və seçimlərinin sağlamlığa müsbət təsir göstərəcək şəkildə qurulmasıdır. Bu, yalnız düzgün qidalanmaqla məhdudlaşmır. İnsan balanslı qidalanmalı, gündəlik fiziki aktivliyə vaxt ayırmalı, kifayət qədər yatmalı və psixoloji sağlamlığını qorumağı bacarmalıdır. Qidalanmada təbii və vitaminlə zəngin məhsullara üstünlük verilməli, fast food və həddindən artıq şəkərli qidalardan uzaq durulmalıdır. Eyni zamanda, gündəlik həyatın stressini idarə etmək üçün istirahət və hobbilər də vacib rol oynayır.

**- Müasir dövrdə insanların sağlamlığına ən çox hansı amillər mənfi təsir göstərir?**

- Müasir həyat tərzi bir çox risk faktorlarını özü ilə gətirir. Oturaq həyat tərzi, texnologiyadan həddindən artıq istifadə, qeyri-düzgün qidalanma və stress bu amillərin başında gəlir. İnsanlar günün böyük hissəsini hərəkətsiz keçirir, bu isə ürək-damar xəstəlikləri, piylənmə və metabolik problemlərin artmasına səbəb olur. Bundan əlavə, özbaşına dərman qəbulu və həkim məsləhəti olmadan müalicə üsullarına müraciət etmək də ciddi təhlükələr yaradır. Sağlamlıq sahəsində düzgün məlumatlanma bu risklərin qarşısını almaqda mühüm rol oynayır.

**- Profilaktik müayinələrin rolu haqqında daha geniş məlumat verə bilərsinizmi?**

-Profilaktik müayinələr sağlamlığın qorunmasında əsas sütunlardan biridir. İnsan özünü sağlam hiss etsə belə, gizli gedən xəstəliklər yalnız müayinələr zamanı aşkar oluna bilər. Erkən diaqnoz bir çox xəstəliyin qarşısını almağa və ya onun ağırlaşmadan müalicəsinə imkan verir. Məsələn, arterial təzyiqin, qan şəkərinin və xolesterinin mütəmadi yoxlanılması ürək-damar və metabolik xəstəliklərin erkən mərhələdə aşkarlanmasına kömək edir. Bu baxımdan hər kəs ildə ən azı bir dəfə ümumi tibbi müayinədən keçməlidir.

**-Mövsümi dəyişikliklər zamanı insanlar sağlamlıqlarını necə qoruya bilərlər?**

-Mövsüm keçidləri orqanizm üçün müəyyən stress yaradır və immun sisteminin zəifləməsinə səbəb ola bilər. Bu dövrdə vitamin və minerallarla zəngin qidalanmaq, xüsusilə təzə meyvə və tərəvəzlərdən istifadə etmək vacibdir. Gündəlik su qəbulu artırılmalı, fiziki aktivlik davam etdirilməli və açıq havada vaxt keçirməyə üstünlük verilməlidir. Bundan əlavə, yuxu rejiminin pozulmaması və bədənin kifayət qədər istirahət etməsi immun sisteminin güclü qalmasına kömək edir.

**-Stressin sağlamlığa təsiri və onun idarə olunması barədə nə deyə bilərsiniz?**

-Stress müasir insanın həyatında qaçılmazdır, lakin onun düzgün idarə olunmaması ciddi sağlamlıq problemlərinə səbəb ola bilər. Uzunmüddətli stress ürək-damar xəstəlikləri, həzm problemləri və psixoloji pozuntular riskini artırır. Stressin idarə olunması üçün fiziki aktivlik, meditasiya, düzgün istirahət və sosial dəstək mühüm rol oynayır. İnsan öz gündəlik həyatında balans yaratmağa çalışmalı və psixoloji sağlamlığına ən az fiziki sağlamlığı qədər önəm verməlidir.

**- İmmunitetin gücləndirilməsi üçün hansı tövsiyələri verərdiniz?**

- Güclü immun sistemi sağlamlığın qorunmasının əsas şərtlərindən biridir. Bunun üçün ilk növbədə balanslı qidalanma təmin olunmalı, kifayət qədər vitamin və minerallar qəbul edilməlidir. Fiziki aktivlik qan dövranını yaxşılaşdıraraq immun sistemini dəstəkləyir. Eyni zamanda, keyfiyyətli yuxu, stressin azaldılması və gigiyena qaydalarına riayət olunması da immunitetin güclənməsində mühüm rol oynayır.

**- Sonda izləyicilərimizə hansı mesajı vermək istərdiniz?**

-Sağlamlıq insanın həyat keyfiyyətini müəyyən edən ən vacib amildir və onu qorumaq hər birimizin gündəlik məsuliyyətidir. Kiçik, amma davamlı vərdişlər – düzgün qidalanma, hərəkətli həyat tərzi, müntəzəm müayinələr və psixoloji balans – uzun və sağlam ömrün əsasını təşkil edir. Unutmayaq ki, sağlam gələcək bugünkü seçimlərimizdən başlayır. Hər kəsi öz sağlamlığına daha həssas yanaşmağa, maariflənməyə və sağlam həyat tərzini həyatının ayrılmaz hissəsinə çevirməyə dəvət edirəm.

***Müsahibə apardı:***
***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova***

# Qırğızıstan Respublikasının Səhiyyə nazirinin müavini Mərkəzi Gömrük Hospitalının fəaliyyəti ilə tanış olub



***8 aprel 2026-cı il tarixində Mərkəzi Gömrük Hospitalında Qırğızıstan Respublikasının Səhiyyə Nazirliyinin nümayəndələri ilə tibb sahəsində əməkdaşlığın inkişafına həsr olunmuş görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkim Bəxtiyar Musayev, Qırğızıstan Respublikasının səhiyyə nazirinin müavini Bakıtbek Kadıraliyev və Qırğızıstan Respublikasının Səhiyyə Nazirliyinin Dərman vasitələri və tibbi ləvazimatlar departamentinin baş mütəxəssisi Akılbek Abduldayev iştirak ediblər.***



Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov qonaqları səmimi salamlayaraq, Tibbi Xidmət İdarəsinin fəaliyyəti, əhaliyə və gömrük əməkdaşlarına, onların ailə üzvlərinə göstərilən yüksəkkeyfiyyətli tibb xidmətləri, eləcə də Mərkəzi Gömrük Hospitalında tətbiq olunan innovativ diaqnostika və müalicə üsulları barədə ətraflı məlumat verib.

Daha sonra Mərkəzi Gömrük Hospitalının rəisi – Baş həkim Bəxtiyar Musayev Hospitalda beynəlxalq standartlara uyğun qurulmuş tibbi xidmət sistemi, həyata keçirilən yüksək ixtisaslı əməliyyatlar, o cümlədən meyit donordan böyrək və qaraciyər transplantasiyası, mürəkkəb ürək-damar cərrahiyyəsi, Mitral klip, TAVİ, EVAR və digər unikal invaziv kardioloji müdaxilələrin uğurla icra olunduğunu qonaqların diqqətinə çatdırıb. B.Musayev bu cür görüşlərin təcrübə mübadiləsi və ortaq layihələrin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Görüş zamanı tərəflər arasında səhiyyə sahəsində qarşılıqlı əməkdaşlıq imkanları, təcrübə mübadiləsi, tibb işçilərinin peşəkar inkişafı, eləcə də dərman vasitələri və tibbi məmulatlar sahəsində birgə fəaliyyət perspektivləri geniş müzakirə olunub. Qırğızıstan Respublikasının səhiyyə nazirinin müavini Bakıtbek Kadiraliyev Mərkəzi Gömrük Hospitalının əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirərək, gələcək əməkdaşlıq üçün bu cür görüşlərin əhəmiyyətini qeyd edib.

Daha sonra Qırğızıstan Respublikasının Səhiyyə Nazirliyinin nümayəndə heyəti Mərkəzi Gömrük Hospitalının Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsini, palataları, Radiologiya, Təcili Tibbi Yardım və Sığorta şöbələrini ziyarət ediblər. Ziyarət zamanı Mərkəzi Gömrük Hospitalının rəisi Bəxtiyar Musayev və Ürək-Damar Cərrahiyyəsi şöbəsinin ürək-damar cərrahı Kənan Əsədov nümayəndə heyətini müşayiət edərək, Hospitalın müasir infrastrukturu, texniki imkanları və tətbiq olunan qabaqcıl tibbi xidmətlər barədə ətraflı məlumat veriblər. Görüş səmimi tərəfdaşlıq ruhunda baş tutaraq, səhiyyə sahəsində Qırğızıstan ilə səmərəli əməkdaşlığın inkişafı üçün mühüm zəmin formalaşdırdı.

SON SƏHİFƏ
SƏS
10 aprel
2026-cı il

# Manatın sabitliyi hansı faktorlardan asılıdır?




***"Milli valyutamızın dövretmə sürətinin azalması, iqtisadi aktivliyin nisbətən zəifləməsi və əhalinin xərcləmə davranışında müşahidə olunan dəyişikliklər pul-kredit mühitində yeni çağırışlar formalaşdırıb. Mövcud şəraitdə manatın sabitliyinin qorunması yalnız monetar alətlərlə deyil, həm də real sektorun vəziyyəti və institusional faktorlarla birbaşa bağlıdır. Manatın sabitliyinə bir çox amillər təsir edir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Asif İbrahimov deyib.***


İQTİSADÇI AÇIQLADI

Onun sözlərinə görə, Azərbaycan Milli iqtisadi modeli üzərində danışsaq əsas faktor neft gəlirləri və xarici ticarət balansıdır ki, Azərbaycan iqtisadiyyatının ixrac strukturunda enerji resurslarının üstünlük təşkil etməsi manatın məzənnəsini birbaşa neft qiymətlərindən asılı vəziyyətə salır: "Neft qiymətlərinin yüksək olduğu dövrlərdə ölkəyə daxil olan valyuta axını artır və bu da manatın sabitliyini dəstəkləyir. Əks halda isə təzyiqlər artır.Digər önəmli amil dövlətin fiskal siyasəti və büdcə xərcləridir ki,Dövlət xərclərinin həcmi və istiqaməti manatın dövriyyəsinə ciddi təsir göstərir. Büdcə xərclərinin iqtisadiyyata daxilolma tempi zəiflədikdə pulun dövretmə sürəti aşağı düşür, bu da iqtisadi aktivliyin zəifləməsinə gətirib çıxarır.

Üçüncü amil Pul-kredit siyasəti və faiz dərəcələridir.Mərkəzi Bankın tətbiq etdiyi faiz siyasəti manatın cəlbediciliyini müəyyən edir. Yüksək faiz dərəcələri əmanətləri stimullaşdıraraq pulun dövriyyədən çəkilməsinə səbəb olur, aşağı faizlər isə istehlakı və investisiyanı təşviq edə bilər.

Dördüncü amil isə Bank sektorunun vəziyyəti və kreditləşmədir.Kreditlərin həcmi və əlçatanlığı iqtisadi aktivliyin əsas drayverlərindəndir. Kreditləşmənin zəifləməsi pul kütləsinin real sektorda dövriyyəsini məhdudlaşdırır və manatın dövretmə sürətini aşağı salır.

Digər amillər isə əhalinin gözləntiləri və davranış modeli, qeyri-neft sektorunun inkişaf səviyyəsi və xarici iqtisadi mühit və geosiyasi risklərdir. Qeyri-neft sektorunun zəif inkişafı valyuta risklərini artırır və manatın dayanıqlığını məhdudlaşdırır. Qlobal bazarlarda baş verən dəyişikliklər, regional risklər və ticarət tərəfdaşlarının iqtisadi vəziyyəti də manatın məzənnəsinə dolayı təsir göstərir. Hazırki vəziyyətdə manatın sabitliyi qısa müddətdə əsasən neft gəlirləri və dövlət xərcləri hesabına qorunsa da, uzunmüddətli perspektivdə bu model risklidir. Pulun dövretmə sürətinin azalması iqtisadi aktivliyin zəiflədiyini göstərir və bu, davamlı inkişaf baxımından siqnal xarakteri daşıyır. Davamlı sabitlik üçün struktur islahatların dərinləşdirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, kredit bazarının aktivləşdirilməsi və institusional mühitin gücləndirilməsi zəruridir. Əks halda, mövcud sabitlik daha çox loru dildə desək, idarə olunan sabitlik olaraq qalacaq və xarici şoklara qarşı həssaslıq davam edəcək".

***Arzu Qurbanlı***

## ELAN

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası

Publik hüquqi şəxs aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir.

**Nəfəs və zərb alətləri kafedrası**
**Professor**

**Musiqi nəzəriyyəsi kafedrası**
**Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər.

Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# SOS: Dünya BÖYÜK ACLIĞA doğru gedir



***Dünya böyük bir ərzaq böhranına doğru gedir. Musavat.com xəbər verir ki, bunu məşhur maliyyə analitiki Lukas Ekvuame deyib. Onun sözlərinə görə, qlobal ərzaq istehsalının 50 faizi birbaşa sintetik gübrələrdən asılıdır: "Şimal yarımkürəsində əkin mövsümü yaxınlaşır və gübrələrin mövcudluğu ciddi şəkildə məhdudlaşmağa başlayıb.***

Belə ki, Hörmüz boğazındakı vəziyyətə görə gübrə tədarükünün 30 faizi kəsilib. Maye qaz tədarükünün 20 faizi dayanıb. Çin gübrə ixracına məhdudiyyətlər tətbiq edərək tədarükün təxminən 30 faizini təhlükə altına alıb. Sintetik gübrələrin əksəriyyəti təbii qazın köməyi ilə istehsalı olunur. Qaz yoxdursa, gübrə yoxdur. Gübrə yoxdursa, məhsul yoxdur. Məhsul yoxdursa, qida yoxdur".

Qeyd edək ki, İran münaqişəsinin qlobal ərzaq bazarına mənfi təsiri barədə BMT-nin Ümumdünya Ərzaq Proqramı da xəbərdarlıqla çıxış edib.

***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**

**Tiraj: 2000**